**Xalq qəzeti**. - 2020.- 10 sentyabr. - № 182. - S. 3.

## Azərbaycan – Türkiyə münasibətləri sarsılmaz təmələ malikdir

**Məlahət İbrahimqızı,**
Milli Məclisin deputatı, YAP Nəsimi rayon təşkilatının sədri

Yaşadığımız üçüncü minilliyin ikinci onilliyində bəşəriyyət müxtəlif qlobal təhlükə və çağırışlarla üz-üzədir. Bu problemlərin doğurduğu təhdidlərin ildən-ilə artması və genişlənən coğrafiyası onlara qarşı dövlətlərin təkbaşına, yaxud da kollektiv şəkildə mübarizəsində ciddi çətinliklər yaradır. Bu mənada, dünya dövlətlərinin əməkdaşlığının güclənməsi günün vacib məsələlərindəndir. Dünyanın bir parçası olan Azərbaycan da baş verən geosiyasi proseslər fonunda özünün milli maraqlarına uyğun, müxtəlif ikitərəfli və çoxtərəfli platformalarda, həmçinin üzvü olduğu beynəlxalq və regional təşkilatlarda mövqeyini daha da gücləndirir. Bu platfor-malardan biri, hətta, ən əhəmiyyətlisi ildən-ilə daha da möhkəmlənən tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan–Türkiyə əlaqələridir.

Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olmasının onların həm sevincli, həm də kədərli günlərdə həmişə bir-birinə dayaq dur-masını şərtləndirir. Ulu öndər Heydər Əliyevin “bir millət, iki dövlət” olaraq xarakterizə etdiyi Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər bu gün hər iki ölkənin rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə yüksək səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Eyni zamanda, Azərbaycan və Türkiyə münasibətlərinin inkişafı türk dünyasının daha sıx şəkildə bir araya gəlməsinin vacib şərtlərindəndir. Prezident İlham Əliyevin dediyi kimi, Türkiyə– Azərbaycan əlaqələri bütün türk dünyası və türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün çox mühümdür.

Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə, o cümlədən, hərbi əməkdaşlıq istiqamətində sıx əlaqələr mövcuddur. İki qardaş ölkə arasında hərbi əməkdaşlıq dünyada artan qlobal və regional təhlükələr fonunda daha sürətlə inkişaf edir. Qardaş ölkələr arasında digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın güclənməsi bölgədə sülhün və təhlükəsizliyin təmin olun-ması baxımından böyük əhəmiyyət kəsb edir. Türkiyə Azərbaycanı təkcə qardaş ölkə kimi deyil, həm də regionda çox əhəmiyyətli strateji tərəfdaş olaraq görür və müxtəlif sahələrdə möhkəm təməllərə əsaslanan geniş əməkdaşlığın daha da inkişaf etdirilməsinə çox ciddi səylər göstərir.

Son illərdə Azərbaycan–Türkiyə hərbi əməkdaşlığında çox böyük sıç-rayış müşahidə olunur. Bu əlaqələrin inkişafı bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin qarantıdır. Daha doğru-su, iki dövlət arasında hərbi sahədəki əməkdaşlıq regional təhlükəsizlik baxımından da çox vacibdir. NATO-nun aparıcı ölkələrindən biri olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsində əhəmiyyətli rola malikdir. Türkiyə ilə Azərbaycan arasında imzalanmış strateji müqavilələr, eləcə də təhlükəsizlik üzrə sənədlər ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişafını zəruri edən amillərdəndir. “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında” müqavilədə nəzərdə tutulanlar qardaş ölkələr arasında hərbi əməkdaşlığın güclənməsinə çox ciddi təkan verib.

Türkiyənin milli təhlükəsizlik konsepsiyası və strategiyası dünyada və bölgədə mövcud olan reallıqlara uyğun-laşdırılıb. Belə ki, bu sənədlərdə Türkiyə sərhədlərində hər bir təhdidə ölkənin milli təhlükəsizliyinə təhlükə mənbəyi kimi baxılır. Cənubi Qafqaz bölgəsi də rəsmi Ankara üçün strateji prioritetlərdən hesab edilir. Cənubi Qafqaz ölkələri, xüsusilə də Azərbaycanla hərbi əməkdaşlığın dərinləşdirilməsi Türkiyənin dövlət və milli maraqlarından irəli gəlir. Ölkələrimiz arasında hərbi əməkdaşlıq baxımından perspektiv planlar da mövcuddur. Türkiyə Azərbaycana taktiki, strateji və hərbi dəstəyini davam etdirməkdə qərarlıdır.

Ermənistanın işğalı nəticəsində nəzarətdən kənar qalmış Azərbaycan sərhədlərindən qeyri-qanuni məqsədlər üçün istifadənin qarşısının alınması Türkiyə–Azərbaycan hərbi əməkdaşlığı üçün mühüm istiqamətlərdən hesab olunur. Hər iki ölkə terrorizmdən əziyyət çəkdiyindən bu istiqamətdə mübarizənin bu günü və perspektivləri diqqət mərkəzindədir. Belə ki, uzun illərdir Azərbaycanın işğal altında olan torpaqları nəzarətdən kənarda qaldı-ğı üçün Ermənistan tərəfindən silah qaçaqmalçılığı, terrorçuluğun inkişaf etdirilməsi, narkotik dövriyyəsi üçün istifadə edilir. Bu isə təkcə ölkəmiz üçün deyil, bütövlükdə region üçün təhlükədir. Transmilli, mütəşəkkil cinayətkarlığa qar-şı Türkiyə–Azərbaycan birgə əməkdaşlığı bu qlobal təhlükə ilə birgə mübarizəni daim diqqətdə saxlayır.

Azərbaycanda sərhəd təhlükəsizliyi sisteminin təşkili, əməliyyat şəraiti və bu istiqamətdə Türkiyənin göstərə biləcəyi dəstək də mühüm əhəmiyyət kəsb edir. İki qardaş ölkə arasında hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi kadrların hazırlanması da əməkdaşlığın prioritetlərindəndir. Bu əməkdaşlıq Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının Bəyannaməsində də öz əksini tapıb. Bununla bərabər, ölkələrimiz arasında hərbi əməkdaşlıq üçün bu ilin fevral ayında Bakıda imza-lanmış və iyulun 2-dən qüvvəyə minən “Azərbaycan

Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında" Saziş geniş perspektivlərə yol açıb. Bu sənədin qüvvəyə minməsi ilə saziş çərçivəsində hazırlanmış illik plana uyğun olaraq, ölkələrin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə geniş-miqyaslı təlimlər keçirilib.

Prezident İlham Əliyev təlimlər başa çatdıqdan sonra Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişafını yüksək qiymətləndirib. Hər il həm Azərbaycanda, həm də Türkiyədə hərbi təlimlərin keçirilməsini ənənə kimi dəyərləndirən dövlətimizin başçısı bu təlimləri Türkiyə–Azərbaycan birliyi-nin, qardaşlığının növbəti təzahürü kimi dəyərləndirib.

Ümumilikdə götürdükdə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Türkiyə dövləti Azərbaycanın haqlı tələblərini daim müdafiə edib, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş tarixi torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələbi ilə mütəmadi çıxış edərək, ölkəmizin ərazi bütövlüyü-nün təmin olunması istiqamətində ardıcıl səylər göstərib və göstərir. 1992-ci ildən bu günədək bütün beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın işğalçılıq siyasəti, eləcə də Xocalı soyqırımı ilə bağlı onlarla qətnamələr qəbul edilsə də, təcavüzkar dövlət beynəlxalq hüquqa məhəl qoymur. Təəssüf ki, beynəlxalq təşkilatlar, eləcə də dünyanın böyük dövlətləri, ATƏT-in Minsk qrupunun həmsədrləri, hətta, BMT Təhlükəsizlik Şurası hələ də Ermənistanın işğalçı siyasətinə göz yumur. Azərbaycanın bu haqq işində ancaq qardaş Türkiyə açıq mövqe nümayiş etdirir, bütün platforma-larda xalqımızın və dövlətimizin yanında olduğunu bəyan edir. Bu günədək qardaş Türkiyə Ermənistanla sərhədləri bağ-layıb və diplomatik əlaqələri kəsib. Azərbaycanın iştirak etmədiyi plat-formada Türkiyə, Türkiyənin iştirak etmədiyi platformada isə Azərbaycan bir millət, iki dövlət missiyasını həyata keçirir. Azərbaycan Prezidentinin bir neçə il bundan əvvəl Türkiyənin iştirak etmədiyi mötəbər beynəlxalq tədbirdə Ermənistanın prezidentinin qardaş ölkə əleyhinə danışarkən onun sözünü kəsərək "Türkiyə burada yoxdur, amma mən varam, biz varıq" – deməsi, Türkiyəni müdafiə etməsi möhkəm və etibarlı dostluğumuzun sübutudur.

Bu günlərdə Prezident İlham Əliyevin Yunanıstanın Azərbaycana yeni təyin olunmuş səfirinə "Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik" deməsi isə təkcə iki qardaş ölkədə deyil, beynəlxalq ictimaiyyətdə də rezonans doğurub. Azərbaycan Prezidentinin bu fikirləri hər iki dövlətin hər bir vətəndaşı üçün Türkiyə–Azərbaycan dostluğuna və qardaşlığına xidmət etməyin yol xəritəsidir. Bütün dövrlərdə Türkiyə--Azərbaycan münasibətləri həm iki ölkə, həm də region üçün çox önəmli rol oynayıb.

Son vaxtlar imzalanan çoxsaylı sənədlər bir daha dünyaya nümayiş etdir-di ki, Azərbaycan–Türkiyə münasibətləri sarsılmaz köklərə bağlıdır. Şübhəsiz ki, böyük geosiyasi və geoiqtisadi potensiala malik hər iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, həmçinin bölgədə iqtisadi in-kişafın gücləndirilməsinə təkan verəcək.